**“Torpaq bazarı haqqında”, “Beynəlxalq xüsusi hüquq haqqında”, “Dövlət satınalmaları haqqında”, “Xüsusi iqtisadi zonalar haqqında”, “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” və “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Torpaq bazarı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 7, maddə 390; 2002, 5, maddə 241; 2003, 1, maddələr 11, 13; 2006, 6, maddə 478, 8, maddə 657; 2007, 1, maddə 3, 6, maddə 571; 2008, 5, maddə 348, 12, maddə 1048; 2012, 6, maddə 504; 2014, 3, maddə 235; 2015, 3, maddə 245, 10, maddə 1096; 2018, 11, maddə 2206; 2020, 7, maddə 827, 12 (I kitab), maddə 1423) 2-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Ələt azad iqtisadi zonasında torpaq bazarının təşkilinin və torpaq bazarında iqtisadi və hüquqi məsələlərin tənzimlənməsi sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 2.** “Beynəlxalq xüsusi hüquq haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 10, maddə 708) aşağıdakı məzmunda 1.6-cı maddə əlavə edilsin:

“1.6. Ələt azad iqtisadi zonasında xarici elementli mülki hüquq münasibətlərinə tətbiq olunmalı hüquq normalarının müəyyən edilməsi sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 3.** “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 1, maddə 11, 12, maddə 706; 2005, 12, maddə 1083; 2006, 12, maddə 1005; 2010, 3, maddə 173, 4, maddə 276; 2016, 2 (I kitab), maddə 205, 4, maddə 628; 2017, 5, maddə 699; 2018, 12 (I kitab), maddə 2523; 2019, 7, maddə 1208, 8, maddə 1372; 2020, 5, maddə 525; Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 330-VIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 1.5-ci maddə əlavə edilsin:

“1.5. Bu Qanunun müddəaları Ələt azad iqtisadi zonasının fəaliyyəti çərçivəsində malların (işlərin və xidmətlərin) satın alınmasına şamil edilmir və bu sahədə münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 4.** “Xüsusi iqtisadi zonalar haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 6, maddə 396; 2013, 2, maddə 92) aşağıdakı məzmunda 3.3-cü maddə əlavə edilsin:

“3.3. Bu Qanunun müddəaları Ələt azad iqtisadi zonasına şamil edilmir, həmin zonanın yaradılması və idarə edilməsi ilə bağlı hüquqi və iqtisadi münasibətlər, həmin zonada sahibkarlıq fəaliyyətinin təşkili qaydaları “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 5.** “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 7, maddə 778; 2014, 10, maddə 1163; 2017, 6, maddə 1027, 7, maddə 1257, 12 (I kitab), maddə 2198; 2018, 4, maddə 638) 3-cü maddəsinin mətni 3.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 3.2-ci maddə əlavə edilsin:

“3.2. Ələt azad iqtisadi zonasında ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 6.** “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 7, maddə 758; 2015, 11, maddə 1265; 2018, 4, maddə 637) aşağıdakı məzmunda 2.4-cü maddə əlavə edilsin:

“2.4. Ələt azad iqtisadi zonasında uyğunluğun qiymətləndirilməsi sahəsində fəaliyyət göstərən qurumların akkreditasiyası sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 iyul 2021-ci il
370-VIQD